**AQTA-nın əməkdaşlıq etdiyi qurumlar:**

1. **Səudiyyə Ərəbistanı Krallığının Baş Ərzaq və Dərman Komitəsi (Saudi Food and Drug Authority – SFDA)** Ölkədə qida, dərman, tibbi cihazlar və sağlamlıqla əlaqəli məhsulların təhlükəsizliyinə cavabdeh olan əsas tənzimləyici qurumdur. Qurumun əsas məqsədi qida, dərman və tibbi cihazların təhlükəsizliyini, keyfiyyətini və effektivliyini təmin etməkdir. https://www.sfda.gov.sa

2. **Səudiyyə Ərəbistanı Krallığının Ətraf Mühit, Su və Kənd Təsərrüfatı Nazirliyi (Ministry of Environment, Water and Agriculture – MEWA)** Ölkədə kənd təsərrüfatı, heyvandarlıq, balıqçılıq, ətraf mühitin mühafizəsi və su ehtiyatlarının idarə olunması sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra orqanıdır. Əsas fəaliyyəti müasir kənd təsərrüfatı texnologiyalarının tətbiqinə dəstək, fermerlərə subsidiya və kreditlər verilməsi, suvarma infrastrukturunun inkişafı, meşələrin qorunması və yaşıllaşdırma, balıqçılıq və akvakultura sahələrinin inkişafı, ərzaq məhsullarında özünütəminetmə, ixracın təşviqi, həmçinin tətbiqi tədqiqatlar vasitəsilə kənd təsərrüfatı və su resurslarının səmərəli istifadəsinin təmin edilməsidir. https://www.mewa.gov.sa